# Məxfilik Siyasəti

Avankart ("biz", "bizim", "bizə", "Avankart MMC") sizin məxfiliyinizi qorumağa sadiqdir. Bu məxfilik siyasəti tətbiqimizi istifadə etdiyiniz zaman məlumatlarınızı necə topladığımızı, istifadə etdiyimizi, açıqladığımızı və qoruduğumuzu izah edir. Avankart tətbiqini istifadə etməklə, bu məxfilik siyasətinin şərtləri ilə razılaşırsınız.

**Biz aşağıdakı növ məlumatları toplaya bilərik:**

1. Şəxsi Məlumatlar: Ad, Soyad, e-poçt ünvanı, telefon nömrəsi və digər əlaqə məlumatları
2. İstifadə Məlumatları: Tətbiqimizdən necə istifadə etdiyiniz barədə məlumatlar, daxil olduğunuz xidmətlər, ziyarət vaxtınız, tarixiniz və sessiyalarınızın müddəti
3. Cihaz Məlumatları: Tətbiqimizə giriş etdiyiniz cihaz haqqında məlumatlar, IP ünvanı, əməliyyat sistemi və brauzer növü
4. Əməliyyat Məlumatları: Tətbiqimiz vasitəsilə həyata keçirdiyiniz əməliyyatların detalları, restoran, market seçimləri və xərclənən məbləğ

**Topladığımız məlumatları aşağıdakılar üçün istifadə edirik:**

1. Xidmətlərimizi Təmin Etmək və Yaxşılaşdırmaq: Əməliyyatları həyata keçirmək və hesabınızın aktivliyini təmin etmək
2. Əlaqə: Sizə yeniliklər, kampaniyalar və maraqlı ola biləcək digər məlumatları göndərmək
3. Analitika: İstifadə və meylləri təhlil edərək tətbiqimizi və xidmətlərimizi yaxşılaşdırmaq
4. Təhlükəsizlik: Fırıldaqçılığın, icazəsiz fəaliyyətlərin və digər qanunsuz fəaliyyətlərin aşkarlanması və qarşısının alınması

**Məlumatlarınızı necə paylaşırıq:**

1. Xidmət Təchizatçıları: Xidmətlərimizi təmin etmək üçün bizim adımızdan xidmət göstərən üçüncü tərəflərlə məlumatlarınızı paylaşa bilərik. Məsələn: ödənişlərin işlənməsi və məlumat təhlili
2. Biznes Transferləri: Biz birləşmə, satın alma və ya bəzi və ya bütün aktivlərimizin satışı prosesindən keçəriksə, məlumatlarınız yeni sahibə ötürülə bilər

3. Hüquqi Tələblər: Məlumatlarınızı qanunla tələb edildikdə və ya dövlət orqanlarının etibarlə tələblərinə cavab olaraq açıqlaya bilərik

**Məlumatların təhlükəsizliyi:**
Şəxsi məlumatlarınızın təhlükəsizliyini təmin etmək üçün müxtəlif təhlükəsizlik tədbirləri tətbiq edirik, lakin, internet üzərindən ötürülmə üsulu və ya elektron saxlanma üsulu 100% təhlükəsiz deyil. Şəxsi məlumatlarınızı qorumaq üçün ticari cəhətdən qəbul olunan vasitələrdən istifadə etməyə çalışsaq da, onların mütləq təhlükəsizliyini təmin edə bilmərik.

**Seçimləriniz:**
Məlumatlarınızla bağlı aşağıdakı seçimləriniz var:

1. Giriş və Yeniləmə: Şəxsi məlumatlarınıza daxil olmaq və onları yeniləmək üçün hesabınıza daxil ola bilərsiniz
2. Çıxış: bizdən promosiya e-poçtlarını almaqdan imtina edə bilərsiniz. Bunun üçün göndərilən e-poçt daxilində abunəlikdən çıxışla bağlı təlimatlara əməl etməyiniz lazımdır
3. Silmək: Şəxsi məlumatlarınızın silinməsini tələb edə bilərsiniz. Bunun üçün destek@avankart.az ünvanına müraciət edə bilərsiniz.

**Uşaqların məxfiliyi:**
Tətbiqimiz 16 yaşdan aşağı şəxslərin istifadəsi üçün nəzərdə tutulmayıb. 16 yaşdan aşağı olan şəxslərdən bilərəkdən şəxsi məlumatlar toplamırıq. Əgər 16 yaşdan aşağı olan şəxsin məlumatlarının təsadüfən əldə etdiyimizi öyrənsək, bu məlumatları siləcəyik.

**Məxfilik siyasətinin dəyişiklikləri:**
Məxfilik siyasətimizi zaman-zaman yeniləyə bilərik. Hər hansı dəyişiklikləri bu səhifədə yeni məxfilik siyasətini yerləşdirməklə və e-mail vasitəsilə bildirəcəyik. Hər hansı dəyişikliklər üçün bu məxfilik siyasətini mütəmadi olaraq yenidən nəzərdən keçirməyiniz məsləhətlidir.

**Əlaqə:**
E-poçt: destek@avankart.az